# Ələsgər ƏLİOĞLU - 70



Hörmətli Ələsgər Əlioğlu!

Sizi - tanınmış şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1953-cü ildə Goranboy rayonunun Xanqərvənd kəndində anadan olmuş, 1974-cü ildə Gəncə Dövlət Pedaqoji Universitetini (keçmiş KDPİ) bitiribsiniz. Bir müddət pedaqoji sahədə çalışıbsınız. Hazırda müstəqil yaradıcılıqla məşğulsunuz. Şeirləriniz rus, Belarus, özbək və b. dillərə tərcümə olunub.

"Xortumsuz fil", "Səhərin yoluna çıxdım", "Yeraltı keçid", "Dəryada gəmim qaldı", "Vətən ağrıları", "Məni qoyub gedən yağış", "İtən bala göyərçin", "Yaz qalayan tonqal", "Göydə uçan qurbağa", "Bələdçi ağaclar", "Yönüm qibləyə sarıdır", "Sərnişin qarışqalar" və b. kitablarınız çapdan çıxıb.

2021-ci ildə böyüklər üçün qələmə almış olduğunuz "21 hekayə" kitabınız da oxucular tərəfindən maraqla qarşılanıb.

Bir sıra əsərləriniz ibtidai sinif dərsliklərinə daxil edilib. Sinifdənxaric oxu və elmi-metodik kitablarda da yaradıcılığınıza geniş yer verilib. Həyat və yaradıcılığınız ali məktəblər üçün hazırlanmış "Uşaq ədəbiyyatı" dərsliyinə də daxil edilib.

Tanınmış sənətkarlardan Osman Sarıvəlli, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Çingiz Hüseynov, Bəkir Nəbiyev, Tofiq Mahmud, Tofiq Mütəllibov, Qərib Mehdi, Bağır Bağırov və başqaları yaradıcılığınızla bağlı maraqlı fikirlər söyləyiblər.

"Həqiqət meridianlarında" qəzetinin təsisçisi və baş redaktorusunuz.

Doğma Goranboyun ictimai-siyasi həyatını, ədəbi-bədii, elmi-publisistik, ensiklopedik məlumatlarını özündə əks etdirən "Gülüstan" toplusunun da təsisçisi və baş redaktorusunuz. 1983-cü ildən Goranboy Rayon Mədəniyyət Şöbəsində (indiki mədəniyyət mərkəzində) fəaliyyət göstərən "Əli Nəzmi" ədəbi birliyinin təsisçisi və sədrisiniz. Tərtibçiliyinizlə və redaktorluğunuzla Goranboy rayonundan olan yaradıcı qüvvələrin əsərlərindən ibarət "Goranboyun söz dünyası" toplusu işıq üzü görüb. Axtarışlarınız nəticəsində "Goranboy bayatıları" və "Goranboy lətifələri" kitabları çapdan çıxıb.

Hörmətli Ələsgər Əlioğlu!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 28 yanvar.- S. 19.